# Tarix-mədəniyyət qoruqları tarixin və mədəniyyətin qoruyucusu kimi

## Ekspertlərin fikrincə, yeni qoruqlar xarici turistlər üçün də maraqlı olacaq

**Azərbaycanın mədəni irsinin tədqiqi, bərpası və qorunması ölkə rəhbərliyinin daim diqqətindədir. Dövlətimizin başçısının mədəni irsin qorunması ilə bağlı imzaladığı fərman və sərəncamlar bu diqqətin bariz nümunəsidir. Tarix və mədəniyyət abidələrimizin, qoruqların qorunması qanun və normativ hüquqi aktlarla tənzimlənir.**



Habelə dövlətimiz mədəni irsin qorunması sahəsində bir sıra konvensiyalara qoşulub. 2001-ci ildə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq vaxtilə dövlət mühafizəsinə götürülmüş abidələrin əhəmiyyət dərəcəsinə görə bölgüsü aparılıb, yeni aşkar olunmuş abidələr siyahıya alınıb. Nazirlər Kabinetinin 2008-ci il 18 mart tarixli qərarı ilə "Abidə qoruqlarının nümunəvi Əsasnaməsi" təsdiq olunub.

Hazırda ölkəmizin ərazisində 6308 tarix və mədəniyyət abidəsi dövlət mühafizəsinə götürülüb və 27 dövlət tarix-mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruğu qeydə alınıb.

İki gün öncə ölkə başçısının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında fərman və "Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" Sərəncamı bu istiqamətdə atılan növbəti addım oldu. Belə ki, "Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" sərəncama əsasən "Çıraqqala" və "Şabran şəhəri" tarixi qoruqlarının ərazisi "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu, Şəmkir rayonunun tarixi ərazisi "Qədim Şəmkir Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu, Ağsu rayonunun tarixi ərazisi isə "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilib. Həmçinin Mədəniyyət Nazirliyinə "Nizami Gəncəvi məqbərəsi" kompleksinin Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun tərkibində fəaliyyətinin və "Çıraqqala-Şabran", "Qədim Şəmkir Şəhəri" və "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət qoruqlarının idarə olunmasını təmin etməsi ilə bağlı tapşırıqlar verilib. Nazirlər Kabinetinə qoruqların sərhədlərini və mühafizə zonalarını, Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Şabran, Siyəzən, Şəmkir və Ağsu Rayon İcra hakimiyyətləri ilə birlikdə müəyyənləşdirib təsdiq etməsi tapşırılıb.

Həmçinin hökumət "Çıraqqala-Şabran", "Qədim Şəmkir Şəhəri" və "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət qoruqlarının idarə olunması, qorunması, təbliği və fəaliyyətinin maddi-texniki təminatı ilə bağlı zəruri tədbirlər həyata keçirməli, bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

Təbii ki, ölkə başçısının sərəncamından irəli gələrək tarixi-mədəniyyət qoruqları elan olunan ərazilərin formalaşması, turistlərin cəlbi və ölkə tarixinin yaşadılması istiqamətində addımların atılmasında bir çox qurumların üzərinə vəzifələr düşür.

**Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mətbuat katibi Fariz Hüseynov** bildirir ki, Fərmana əsasən Dövlət Xidmətinin tərkibində 5 regional idarə yaradılacaq. Belə ki, yerlərdə olan abidə mühafizəçiləri də həmin regional idarələrin tərkibində fəaliyyət göstərəcəklər: "Regional idarələr dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət nəzarətini gücləndirmək, idarəetmənin səmərəliliyini təmin etmək məqsədilə yaradılıb". F.Hüseynov qeyd edir ki, Fərmana əsasən Dövlət Xidməti dövlət mühafizəsində olan tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət nəzarətinin gücləndirilməsini, daşınmaz tarix və mədəniyyət abidələrinin tədqiqini təmin edəcək: "O cümlədən qurum tarix və mədəniyyət qoruqlarının mühafizəsinin müasir səviyyədə təşkilini, tarix və mədəniyyət abidələrinin qorunmasında müasir texnologiyaların və aparıcı beynəlxalq təcrübənin tətbiqini, eləcə də tarix və mədəniyyət abidələrinin genişmiqyaslı tədqiqini həyata keçirəcək".

**Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrinin Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov** ölkəmizdə bir neçə Tarixi-Mədəniyyət Qoruğunun yaranmasını mühüm hadisə hesab edir. Belə ki, tarixi mədəniyyət abidələrinin qorunması birbaşa Abidələrin Mühafizəsi və Bərpası İdarəsinin bilavasitə regional şöbələrinin fəaliyyəti ilə tənzimlənir: "Qoruqların yaradılması çox əhəmiyyətlidir. Çünki bizim bir çox ərazilərimiz var ki, orada çox sayda tarix-mədəniyyət abidələri, yer altında arxeoloji abidələr var. Onların qorunması üçün bu sərəncam böyük önəm daşıyır. Digər tərəfdən, ölkənin tarixinin qorunması üçün qoruqların yaradılması və mühafizəsi əhəmiyyətlidir".

Ekspertin fikrincə, o ərazilərdə qoruqların yaradılması ilə iş yerlərinin açılması da əhalinin işlə təminatında mühüm amildir: " Faktiki ərazi həm mühafizə olunur, həm də gələcəkdə bərpa işləri ön planda olur. Ola bilər ki, təbiət hadisələri nəticəsində - ildırım vurması, yağış, sürüşmə və s. kimi təbii hadisələr abidələrə təsir etsin. İnzibati yaşayış ərazilərində ağır tonnajlı maşınların hərəkəti də abidələrin laxlanmasına, dağılmasına səbəb olan amillərdəndir. Qoruq elan olunacaq ərazilərdə abidələrin qorunması çox mürəkkəb işdir. Abidə işindən məlumatı olan insanlar həmin qoruqlarda işlə təmin olunmalıdır ki, bu sahədə yaranan problemlərin həllinə kömək etsinlər". Ekspertin sözlərinə görə, Orta Əsr Ağsu şəhərinin qoruq elan olunması zərurətdən yaranıb: "Ağsu ərazisində böyük həcmli arxeoloji qazıntı işləri aparılır. Faktiki olaraq bu ərazinin qoruq elan olunması vacib idi. O cümlədən digər ərazilər - istər "Çıraqqala", istər "Şabran", istər qədim Şəmkir şəhəri olsun, həmin ərazilərdə arxeoloji qazıntılar aparılır, müəyyən nəticələr əldə olunur. Bu ərazilərin korlanmasının, çirklənməsinin qarşısını almaq üçün mühafizə yaradılır".

F.İsmayılov bildirir ki, tarix-mədəniyyət qoruqları xarici ölkə turistləri üçün də maraqlı olacaq. Belə ki, Azərbaycan ərazilərində bu cür tarixi mədəniyyət abidələrini görmək əcnəbi turistlər üçün maraqlıdır: "Onlar bu cür abidələri görmək üçün böyük həvəs göstərirlər. Dünyanın hər yerində tarixi-mədəni məkanlar maraq doğurur. O cümlədən bizdə də belə ərazilərin yaradılmasını böyük əhəmiyyəti var". Ekspert, o cümlədən gələcəkdə digər ərazilərimizdə də bu cür qoruqların yaranmasını vacib hesab edir: "Lənkəran, Gədəbəy, Tovuz, Qazax, Gəncə ətrafında, Qarabağda və bir sıra digər ərazilərimizdə qoruq adlandırılmalı geniş ərazilərimiz var ki, biz onlardan istifadə etməliyik. Bu, ölkəyə turizm gətirməsi baxımından da, həmin ərazilərdə abidələrin qorunması baxımından da əhəmiyyətli olar". Ekspert hesab edir ki, dövlət başçısının sərəncamı ölkəmizdəki bütün tarixi mədəni ərazilərin, abidələrin qorunmasına böyük töhfə olacaq.

Tarix-mədəniyyət qoruqları elan olunan ərazilərin isə, təbii ki, turistlərin cəlbi baxımından təbliğata ehtiyacı var.

**Dövlət Turizm Agentliyinin mətbuat katibi Kənan Quluzadə** də bunu təsdiqləyir: "Təbii ki, ölkə başçısının tarixi-mədəniyyət qoruğu elan etdiyi ərazilərin turizm təbliğatı olacaq. Hazırda Turizm Agentliyinin nəzdində 7 qoruq var. O cümlədən Ekologiya və Mədəniyyət nazirliklərinin nəzdində də qoruqlar var. Bunların hamısının təbliğatı keçirilir. Bundan sonra da bu istiqamətdə işlər həyata keçiriləcək".

Qeyd edək ki, Tarix-Mədəniyyət Qoruqlarının yaradılması, həmçinin Azərbaycanın memarlıq irsinin tədqiq olunmamış abidələrinin bölgələr üzrə araşdırılması, yeni aşkar olunmuş abidələrin siyahıya alınması və tədqiqatların nəticələrinin toplular şəklində nəşri baxımından da əhəmiyyətli olacaq.

**Təranə Məhərrəmova**